


# 25-27 oktyabr tarixlərində ADA Universitetində Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq Kitab Sərgi -Yarmarkası keçirilmişdir.




25-27 oktyabr tarixlərində ADA Universitetində Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq Kitab Sərgi -Yarmarkası keçirilmişdir.

Milli Aviasiya Akademiyası kitabxanası 25-27 oktyabr tarixlərində ADA Universitetində Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq Kitab Sərgi-Yarmarkasında iştirak etmişdir. Sərgidə ölkəmizin 13-dən artıq yerli akademik, universitet kitabxanaları ilə yanaşı kitab evi, nəşriyyatlar və kitab mağazaları da yarmarkada iştirak etmişdir. Sərgi ölkəmizin və dünyanın müxtəlif məkanlarından olan yazıçıları, nəşriyyatları, kitabxanaları və oxucuları bir araya gətirərək elmin, təhsilin, ədəbiyyatın təntənəsini qeyd etmək və fikir mübadiləsi aparmaqla Ümummilli Lider Heydər Əliyev irsini dərin hörmətlə yad etmək məqsədi ilə təşkil olunmuşdur.

Milli Aviasiya Akademiyasının kitabxanası sərgidə uğurla iştirak etmiş, Akademiyamızın stendi geniş ictimai kütlənin diqqətini cəlb etmişdir. Keçirilən sərgi cəmiyyətdə mütaliənin təbliği, kitabxanalara ictimai marağın artırılması, yerli və xarici nəşriyyatlar arasında sıx əlaqələrin qurulması, yeni imzaların və müəlliflərin tanınması, mövcud sahədə gedən proseslərin öyrənilməsi baxımından geniş imkanlar yaratmışdır. MAA-nın kitabxanası üçün ayrılan guşədə fondun siyahısına daxil olan yeni kitablar, MAA-nın dövri nəşrləri və digər çap vəsaitləri nümayiş etdirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar böyük marağa səbəb olmuşdur. Sərgidə Akademiyamız haqqında hazırlanan videoçarx əks etdirilmişdir. MAA – nın tələbələrinin sərgidə iştirakı diqqətdən yayınmamışdır. Sərgidə stendimiz ilə yaxından tanış olan sərgi iştirakçılarına akademiyamız ilə bağlı hazırlanmış suallar verilmiş, sual-cavabda iştirak edən tələbələrə və ziyarətçilərə akademiya tərəfindən maraqlı hədiyyələr təqdim edilmişdir.